# Yuri NİKİŞOV: "Heydər Əliyev geniş təfəkkürə malik insan, əsl dövlət xadimi idi"

Heydər Əliyev geniş təfəkkürə malik insan, əsl dövlət xadimi idi.

1980-ci illərdə Sov.İKP Xabarovsk diyar komitəsinin birinci katibi Aleksey Çernovun köməkçisi vəzifəsində çalışmış Yuri Nikişov AZƏRTAC-a söhbətində dahi lideri bu sözlərlə xarakterizə edib.

Y.Nikişov xatırlayır: "1984-cü ildə Heydər Əliyev Baykal-Amur Magistralında tikintinin gedişi ilə tanış olmaq məqsədilə Uzaq Şərqə səfər etdi. Həmin dövrdə



Komsomolsk-Amurda hərbi təyinatlı iki zavodun təməli qoyulurdu. Heydər Əliyev partiya-sovet işçiləri ilə birlikdə bu zavodların təməlqoyma mərasimində də iştirak etdi".

Həmsöhbətimiz qeyd edib ki, hələ ötən əsrin 80-ci illərində Heydər Əliyev Baykal-Amur Magistralının əhəmiyyətini yüksək qiymətləndirir və onun perspektivlərini görürdü: "Heydər Əliyev geniş təfəkkürə malik insan, əsl dövlət xadimi idi. O, tikintinin templərini, ayrı-ayrı məsələlərin incəliklərinə qədər mütəxəssislərin nəyə qadir olduğunu dəqiq qiymətləndirirdi. Heydər Əliyev Baykal-Amur Magistralının perspektivini təsəvvür edərək, onun inkişaf edəcəyini bilirdi. İndi, artıq üzərindən çoxlu illər keçdikdən sonra ikinci yolun salınması üzrə işlərə başlanılıb. Heydər Əliyev perspektivdə məhz bu hədəfləri görürdü".

Azərbaycan.- 2023.- 26 aprel.- S. 7.